# H.Z.Tağıyevin xatirə muzeyi

● Aynur BABAYEVA





Tarixdə iz qoymaq tək-tək şəxsiyyətlərə nəsib olur. XIX əsrin sonları - XX əsrin əvvəllərində ən aşağı təbəqədən yüksələn azərbaycanlı H.Z.Tağıyev də xalqımızın tarixində özünəməxsus yer tutan nəhəng şəxsiyyətlərdəndir. Hacının xatirəsini əbədiləşdirmək məqsədi ilə onun yaşayış mülkündə yerləşən Milli Azərbaycan Tarixi Muzeyində bu yaxınlarda H.Z.Tağıyevin 8 otaqdan ibarət memorial muzeyi yaradılmışdır.Hər bir xalq özünün tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri ilə ölməzdir. Təkcə xalqların deyil, hətta ayrı-ayrı şəxsiyyətlərin ömür yolu zaman-zaman nəsillərə örnək olub. Birmənalı şəkildə hamımız tərəfindən qəbul edilən böyük şəxsiyyətlərimiz - məşhur siyasi və dövlət xadimlərimiz, alim, şair və yazıçılarımız xalqımıza xas zəngin mənəviyyatın, mədəniyyətin və əyilməz ruhun əbədi daşıyıcıları sayılırlar.